Azerbaijanian Journal of Economics and Social Studies

Number 2, Volume 1, 2015

# BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN BƏZİ PRİNSİPLƏRİ

Əlisa Təvəkkül oğlu ZEYNALLI, i.f.d.,
Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının
İqtisadiyyatı və Təşkili İnstitutunun şöbə müdiri,
zeynal1950@mail.ru;
mobil tel. 051 593 30 25

***Xülasə***

Ərzaq təhlükəsizliyi bəşəriyyətin tarixi boyu aktual sayılmış, sayılır və hər zaman sayılacaqdır. Hazırda qlobal problemlərdən biridir. Müasir bazar iqtisadiyyatı şəraitində, davamlı və dinamik inkişaf prinsiplərinə uyğun, vahid təsərrüfat sistemi çərçivəsində, ərzaq təhlükəsizliyi probleminin həlli kompleks yanaşmalar tələb edir, əlverişli təkmilləşdirmələr aparılmasının zəruriliyini şərtləndirir. Ərzaq təhlükəsizliyi probleminin həlli praktik olaraq iqtisadi münasibətlərin bütün aspektini əhatə edir. Elə bir məsələ yoxdur ki, ərzaq təhlükəsizliyinə birbaşa və dolayı yolla təsir göstərməsin. İqtisadi münasibətlərin motivi insanın tələbatının ödənilməsinə yönəldiyindən, onun mərkəzində ərzaq təhlükəsizliyinin təmin edilməsi durur.

***Açar sözlər***: ərzaq təhlükəsizliyi, ehtiyatlar, maya dəyəri, istehsal xərcləri, bazar iqtisadiyyatı, qiymət, rəqabət, müflisləşmə.

***Problemin qoyuluşu***: kənd təsərrüfatı istehsalı ərzaq təminatı və təhlükəsizliyinin bünövrəsini təşkil edir. İqtisadi münasibətlər sisteminin məqsədyönlü təşkili və idarə olunması, tərkib siyasətinin həlli, ərzaq balanslarının düzgün hazırlanması, iqtisadi qiymətləndirmə metodlarının təkmilləşdirilməsi, müasir dövrün tələblərinə uyğunlaşdırılması ərzaq təhlükəsizliyinin əsas məsələlərini təşkil edir. Buna baxmayaraq, kənd təsərrüfatında neolit dövründəki təsnifatdan istifadə olunur, tələbat və təklifin hesablanmasına düzgün yanaşılmır, 300 il bundan əvvəl Avropa məkanında yaşayan iqtisadçıların düçüncə tərzi real çıxış yolu kimi qəbul edilir, Azad bazar iqtisadiyyatı, onun rəqabət və müflisləşmə prinsipləri hakim mövqe tərzində cərəyan edir, nəticədə təbii və iqtisadi ehtiyatlardan səmərəli istifadə olunması zərbə altında qalır, ərzaq təminatında əsas problemləri aradan qaldırmaq mümkün olmur.

***Problemin öyrənilmə səviyyəsi***: cəmiyyətin inkişafının bütün mərhələlərində problemin öyrənilməsinə xüsusi diqqət yönəldilmiş, müxtəlif xarakterli təkliflər irəli sürülmüş, qərarlar qəbul edilmişdir: neolit inqilabı baş vermişdir; qədim dövrün insanları qadın və qızların öldürülməsi, diri-diri basdırılması və s. qeyri-sivil üsullara əl atmışlar; dövrün alimləri - Platon və Aristotel stabil cəmiyyətin yaradılması, insanlar arasında kəbin münasibətlərinin nizamlanmasını məqsədəuyğun saymışlar; orta əsrlərdə İslam aqrar inqilabı baş vermiş və kənd təsərrüfatının qloballaşdırılması ənənəsi formalaşmışdır; beynəlxalq ticarət əlaqələrinin

yaradılması və inkişaf etdirilməsi zəruri çıxış yoluna çevrilmişdir; Avropa mühitində merkantilistlər xarici iqtisadi əlaqələrin tənzimlənməsi, müsbət saldoya nail olunması, xarici ölkələrə pul axınının qarşısının alınması, dövlətin tənzimləyici funksiyasını yerinə yetirmək vacibliyini diktə etmiş və həyata keçirmişlər; o dövrdəki mövcud vəziyyət Fransada vaxtaşırı aclıqların baş verməsini şərtləndirmiş, fiziokrat məktəbinin yaranması ilə nəticələnmişdir, onun nümayəndələri kənd təsərrüfatının sərvətin yeganə mənbəyi olduğunu, azad ticarətin məqbulluğunu, dövlətin və kilsə xadimlərinin iqtisadi münasibətlərə müdaxiləsinin xeyirsiz olduğunu göstərmiş, bu ideyaların təntənəsinə çalışmışlar, Fransa inqilabının toxumları səpilmiş, çüçərmiş, inkişaf etmiş və baş vermişdir; İtaliya və İngiltərədə kapital yığımı yeni iqtisadi münasibətlərin yaranmasına, humanist düşüncə tərzinin formalaşmasına, utopik sosialistlərin, klassik iqtisadçıların yaranmasına səbəb olmuşdur. Bütün Avropa ölkələrində iqtisadi dirçəliş baş vermişdir. Bunların hamısının motivi Avropa mühitindəki mövcud vəziyyəti aradan qaldırmaq, insana məhəbbəti ön plana çıxartmaq, iqtisadi münasibətlərdə insana xidmət əlamətlərini təcəssüm etdirməklə nəticələnmişdir. Özünəməxsus iqtisadi sistem formalaşmışdır. Onun əsas prinsiplərinə daxil edilir: fərdi (şəxsi) mülkiyyət; rəqabət, inhisarçılıq və müflisləşmə. Göstərilənlərlə yanaşı, müasir dünya təsərrüfatı sistemində, onun müxtəlif ərazi və ölkələrində formalaşan iqtisadi münasibətlərin birmənalı qəbul edilməsi və diktə olunması məqsədə çatmağın əlverişli üsulu sayılmır. Avropa mühitindəki insanların düşüncə tərzi ən yaxşı halda bu mühitin özündə məskunlaşanlar üçün faydalı ola bilər. Fikrimizcə, hər dövrün özünəməxsus düşüncə tərzi olmalıdır. Dünyanın ayrı-ayrı region və ölkələrinin obyektiv xüsusiyyətlərinin nəzərə alınması, tarixi təcrübələrin öyrənilməsi, mümkün uyğunlaşdırmalar nəticəsində müasir dövrün insanlarının tələbatını ödəyən əlverişli nəzəriyyələr yaradılmalıdır. Bəzi məsələlər üzrə tədqiqat nəticələrini elmi işçilər və praktiklərin müzakirəsinə təqdim edirik.

***Məqalənin yeniliyi***: ərzaq təminatında müstəsna əhəmiyyət kəsb edən kənd təsərrüfatının təsnifatına yeni yanaşılır; iqtisadi-statistik tədqiqatların üç mərhələsinin: mikro, mezo və makro səviyyədə qiymətləndirmənin əhəmiyyəti izah edilir; istehlak bazarının tələbat və təklifinin düzgün müəyyənləşdirilməsinə səy göstərilir; məhsulların natural balanslarının, o cümlədən ərzaq balanslarının müasir bazar iqtisadiyyatı şəraitində əhəmiyyəti açıqlanır; avropa iqtisadçılarının təklif etdikləri bazar iqtisadiyyatının rəqabət, inhisarçılıq və müflisləşmə kimi əlamətlərinə müəllif subyektiv münasibətini bildirir və düşündürməyə səy göstərir; müasir mərhələdə iqtisadi fəaliyyət nəticələrinin qiymətləndirilməsini təkmilləşdirmək barədə konkret təkliflər irəli sürülür və s. Məqalə iqtisadi nəzəriyyə və kənd təsərrüfatı iqtisadiyyatının təkmilləşdirilməsi məqsədini özündə əks etdirir.

### *Məqalədə şərh edilən məsələlər*

**1. *Kənd rəsərrüfatında tərkib (struktur) təkmilləşdirilməsinə dair.*** Hesab edilir ki, kənd təsərrüfatının təsnifləşdirilməsinə dair mövcud olan düşüncə tərzi təxminən 5 000 il əvvəl, Neolit İnqilabı zamanı təklif edilən iki bölmədən: bitkiçilik və heyvandarlıq sahələrindən ibarətdir və indiki dövrdə onun təkmilləşdirilməsi: bitkiçilik, heyvandarlıq, yemçilik və xidmət sahələrinə bölünməsi zərurəti yaranmışdır. Belə təsnifləşdirmə BMT-nin fəaliyyət sahələri və məhsul növlərinin təsnifatlarına uyğun gəlir. Litva Respublikasının timsalında bunu belə səciyyələndirmək olar: 2010-cu ilin məlumatları üzrə bitkiçilik 42,8%, heyvandarlıq – 44,0%, yemcilik – 10%, xidmət sahələri – 2,9% xüsusi çəkiyə malik olmuşdur. Alt sahələrin tutduğu yer və əhəmiyyəti müəyyənləşdirmək üsulu ilə, dinamik təhlil aparılarkən, kənd təsərrüfatının sahə və alt sahələrinin inkişaf meyllərini bilmək mümkün olur. Müvafiq nəzəriyyənin olmaması və s. nəticəsidir ki, Azərbaycanda sahənin daxili struktutunu mükəmməl öyrənmək mümkün deyil, dəqiq statistik məlumatlar hazırlanmır. Kənd təsərrüfatının fərdi əlamətlərindən biri də ondan ibarətdir ki, burada, ənənəvi düşüncə tərzindən fərqli olaraq, ət

istehsal edilmir, diri çəkidə mal-qara (quş) yetişdirilir və satılır, bütün yaşlarda və müxtəlif məqsədlər üçün, kökəltmə və yemləndirmə işləri həyata keçirilir və s. Belə əməliyyatlar sahənin məhsulunun iqtisadi-statistik hesablamalarında nəzərə alınmalıdır.

***2. İqtisadi-statistik tədqiqatların üç mərhədə həyata keçirilməsi.*** Tədqiqatlarımız deməyə əsas verir ki, iqtisadi subyektlərin fəaliyyət nəticələrinin iqtisadi-statistik tədqiqatına yeni yanaşmaların formalaşdırılması həllini gözləyən vacib məsələlərdəndir. Belə ki, hazırda həm nəzəriyyəçilər, həm də praktiklər mikro- və makroiqtisadi tədqiqatlara üstünlük verirlər. Sənayeləşmədən sonrakı informasiya cəmiyyətində mezoiqtisadi tədqiqatların əhəmiyyəti yüksəlir, yəni iqtisadi fəaliyyət nəticələrini üç mərhələdə: mikro-, mezo- və makroiqtisadiyyat səviyyəsində öyrənmək zərurəti yaranır. Bu yeni yanaşma şəraitində induktiv metod üstünlük təşkil edir. Mikroiqtisadiyyat üzrə iqtisadi subyektlərin fəaliyyət nəticələri aşağıdakı əlamətlər üzrə qruplaşdırılır: siniflər, qruplar, alt sahə, sahə, sektor və s. Mezoiqtisadiyyat vasitəsi ilə makroiqtisadiyyatın icmal məlumatları hesablanır. **A**şağıdakı kimi səciyyələndirilir

*Cədvəl 1.*

Azərbaycanda 2002-ci ildə pambıq istehsalına dair bəzi məlumatlar

| | Pambıq əkən təsərrüfatların xüsusi çəkisi, faiz | Ümumi əkin sahəsində pambıq əkinlərinin xüsusi çəkisi, faiz | Pambıq istehsalında rayonun xüsusi çəkisi, faiz | Məhsuldarlıq, sent/ha | Satış qiyməti, manat/kq | İstehsala çəkilən xərc, manat/kq |
|---|---|---|---|---|---|---|
| Gəncə-Qazax | 1,2 | 1,0 | 4,5 | 13,8 | 0,245 | 0,160 |
| Aran | 19,7 | 13,5 | 90,6 | 11,1 | 0,215 | 0,167 |
| Yuxarı Qarabağ | 7,1 | 8,0 | 4,0 | 9,2 | 0,245 | 0,173 |
| Dağlıq Şirvan | 3,0 | 2,0 | 0,9 | 8,6 | 0,220 | 0,170 |
| Azərbaycan | 5,6 | 5,0 | 100 | 11,1 | 0,217 | 0,167 |

Mikroiqtisadi tədqiqatlar zamanı hər bir subyekt (təsərrüfat) üzrə ətraflı məlumatlar əldə edilirsə, mezoiqtisadi tədqiqatlarda inzibati və iqtisadi rayonlar, sahələr üzrə fərdi xüsusiyyətlər öyrənilir. Makroiqtisadi tədqiqatlar ölkənin ümumi vəziyyətini səciyyələndirir, beynəlxalq müqayisəliliyi təmin edir. İcmal məlumatlar mezoiqtisadi məlumatların cəmini xarakterizə edir.

***3. İstehlak bazarının tələbatının hesablanması.*** Bazar iqtisadiyyatı şəraitində istehlak bazarının tələbatının öyrənilməsi əsas məsələ sayılır. Ərzaq və qeyri-ərzaq məhsullarının tələbatı yalnız əhalinin istehlakı ilə xarakterizə edilmir. Ədəbiyyatlarda tələbat dedikdə, onu belə səciyyələndirirlər: "pessimistlərin (bədxahların) nöqteyi-nəzərincə iqtisadi tələbat dedikdə, əsasən şəxsiyyət, firma və bütövlükdə cəmiyyətin inkişafı və yaşayış tərzi üçün zəruri olan nəyinsə çatışmazlığı nəzərdə tutulur, Optimistlər isə iqtisadi tələbatın hesablanması zamanı həm də iqtisadi fəaliyyət üçün zəruri hesab edilən daxili mötivləri nəzərə alırlar" (1,44). Bu nöqteyi-nəzəri qəbul etməklə, hesab edirik ki, "tələbat" bazar iqtisadiyyatının birinci və başlanğıc prinsipidir. Odur ki, dəqiq hesablanma zərurətini doğurur. Fikrimizcə, cəmiyyətin tələbatı üç məqsəddən yaranır: *tələbat = əhalinin şəxsi tələbatı (mövcud əhalinin orta illik sayı* fizioloji norma) + milli iqtisadiyyat sahələrinin tələbatı (istehsal ehtiyacları) + ixrac üçün yaranan tələbat (kontrakt müqavilələrinin həcminə uyğun).*

***4. Bazar iqtisadiyyatı şəraitində təklif və onun formalaşdırılma xüsusiyyətləri.*** İstehlak bazarı tələbatına uyğun təklifi qəbul edir, tələb və təklifin tarazlığı qanununun fəaliyyəti altında.

İqtisadi subyektlər (təsərrüfatlar) bazarın tələbatına uyğun təklif formalaşdırırlar (istehsal təşkil edirlər). Təklifin iki tərəfi bir birindən fərqləndirilir: *təklif = milli (yerli) istehsal + idxal.*
İstehlak bazarının təklifini natural balanslar vasitəsilə daha dəqiq xarakterizə etmək olur. Buğda balansına əsasən onu izah edər:

*Cədvəl 2.*

Azərbaycanın 2010-cu ildə buğda balansı, min tonla

| Ehtiyatlar | | İstifadələr | |
|---|---|---|---|
| İlin əvvəlinə qalıq | 902 | Toxum üçün | 145 |
| Milli (yerli) istehsal | 1272 | Mal-qara və quş yeminə | 422 |
| İdxal | 1330 | Ərzaq məhsullarının istehsalı üçün | 1848 |
| | | Qeyri-ərzaq məhsullarının istehsalına | 48 |
| | | Natural formada ərzaq istehlakına | 82 |
| | | İxrac | 0,0 |
| | | İtkilər | 209 |
| | | İlin axırına qalıq | 750 |
| İstehlak bazarının ehtiyatlarının cəmi | 3504 = | İstifadələr və qalığın cəmi | 3504 |

Ölkənin buğda bazarının ehtiyatlarının bir hissəsini (25,7%) ilkin qalıqlar təşkil edir, 36,3%-ni milli taxıl istehsalçıları bazara çıxarırlar və 38,0%-i idxaldan daxil olur. İstehlak bazarının istifadəçiləri buğdanı aşağıdakı məqsədlərə yönəltmişlər: təsərrüfatların toxum ehtiyaclarının ödənilmməsinə (4,1%), mal-qara və quş yemi üçün istifadə edilmişdir (12,1%), ərzaq məhsullarının istehsalına sərf edilmişdir (52,7%), emal edilmədən ərzaq ehtiyaclarının ödənilməsinə sərf edilmişdir (2,3%), itkilər (6,0%) və ehtiyatların 21,4%-i ilin sonuna qalmışdır.

Göründüyü kimi, ərzaq baslansları istehlak bazarını tam və ətraflı xarakterizə edən iqtisadi-statistik cədvəllərdir. Dəqiq tərtib olunması mühüm əhəmiyyət kəsb edir. İstehsala dair məlumatların düzgünlüyü təmin olunmalı, qalıqlar, mal-qara yemi, itkilər üzrə məlumatlar düzgün hesablanmalıdır. Azərbaycan və Litva üzrə hesablanan məlumatların müqayisəsinə nəzər salaq.

*Cədvəl 3.*

Ölkələr üzrə məlumatların müqayisəsi, surətdə Azərbaycan,
məxrəcdə isə Litva Respublikasının məlumatları verilmişdir, xüsusi çəki, %

| Məhsulların adı | İllər | İlin əvvəlinə qalıq | Yemi üçün istifadə edilmişdir | İtkilər |
|---|---|---|---|---|
| Ət və ət məhsulları | 2007 | 6,4 / 1,3 | 0,0 / 7,0 | 1,4 / 1,1 |
| | 2009 | 2,9 / 2,1 | 0,0 / 2,7 | 1,1 / 1,0 |
| Süd və süd məhsulları | 2007 | 12,6 / 6,7 | 1,7 / 7,5 | 2,8 / 0,0 |
| | 2009 | 7,5 / 9,2 | 2,0 / 7,5 | 1,9 / 0,0 |
| Yumurta | 2007 | 2,4 / 0,2 | 1,6 / 0,0 | 0,4 / 0,0 |
| | 2009 | 2,1 / 0,2 | 1,6 / 0,0 | 0,7 / 0,0 |
| Dənlilər və paxlalılar | 2007 | 16,1 / 18,3 | 21,5 / 30,6 | 4,7 / 1,5 |
| | 2009 | 20,6 / 24,1 | 23,9 / 22,2 | 5,2 / 1,1 |
| Kartof | 2007 | 40,7 / 39,1 | 2,7 / 18,4 | 4,7 / 3,4 |
| | 2009 | 41,1 / 35,9 | 3,0 / 18,3 | 5,1 / 4,2 |
| Tərəvəz və bostan | 2007 | 11,9 / 33,9 | 1,9 / 3,4 | 5,3 / 7,1 |
| | 2009 | 13,4 / 31,9 | 2,3 / 3,7 | 5,8 / 7,2 |
| Meyvə və giləmeyvə | 2007 | 7,6 / 8,7 | 0,3 / 0,2 | 1,7 / 1,6 |
| | 2009 | 4,1 / 6,3 | 0,3 / 0,3 | 1,1 / 2,8 |

Hər iki ölkədə məhsul istehsalı, idxalı, ixracına dair rəsmi statistik və inzibati məlumatlardan istifadə edilir, ərzaq məqsədilə istifadə edilən məhsulun həcmi saldo (qalıq) metodu ilə hesablanır. Qalıqlar (ilin əvvəlinə və sonuna), itkilər və istehsal ehtiyacları üçün (mal-qara yemi, toxum, sənaye məhsulları istehsalına) istifadələrə dair məlumatların hesablanması üçün Azərbaycanda tematik statistik müşahidələr keçirilir və dəqiq hesablanır, Litvada isə xüsusi çəkidən istifadə edilir. Müxtəlif metodlardan istifadə olunması məlumatların dəqiqliyinə bilavasitə təsir göstərir və balansın ayrı-ayrı göstəriciləri üzrə məlumatların keyfiyyətini aşağı salır. Cədvəldən aydın görünür. Azərbaycan üzrə müvafiq göstəricilərin məlumatları daha dəqiq hazırlandığına görə, Litva ilə müqayisədə, xeyli fərqlənir. Azərbaycanda ərzaq üçün faktiki istehlak dəqiq hesablanır, Litvada isə istehlakın həcmi şişirdilir. Bu kimi hallar istehlak olunmuş məhsulların kalorilik, zülallıq, yağlılıq və karbohidratların miqdarına bilavasitə təsir göstərir. Qidalanma səviyyəsini düzgün yarakterizə etmək mümkün olmur və s.

***5. Müasir mərhələdə qiymətlərin əmələ gəlmə prinsipləri***. Bazar iqtisadiyyatı şəraitində qiymətlər bazar qanunlarına: dəyər, tələb və təklifin tarazlığı, keyfiyyət, rəqabət, inhisarçılıq və s. asılı olaraq müəyyən edilsə də, ona yanaşma formaları, əmələ gəlmə prinsipləri nəzəri aspektdən öyrənilməli, qiymətin mahiyyəti dəqiqləşdirirməli, funksiyalar müəyyənləşdirilməlidir ki, ondan təsərrüfat subyektlərinin fəaliyyətinin nəticələrini qiymətləndirməkdə, səmərəlilik göstəricilərinin hesablanmasında istifadə etmək mümkün olsun. Qiymət və qiymətin əmələ gəlməsinə dair əvvəlki mövqeyimiz dəyişməz qalır (3,239-247) və onun növləri və əmələ gəlməsinin nümunəvi sxemi aşağıdakı kmidir.

Sxem 1. Qiymətin əmələ gəlməsinin nümunəvi sxemi

<table>
<tr><td>Cari istehsal proqramı xərcləri</td><td>Əlavə dəyər</td><td rowspan="2">Yükləmə, boşaltma, daşıma xərcləri və sair qaimə xərcləri</td><td rowspan="3">Məhsula görə vergilər (ƏDV, aksiz və s,)</td><td rowspan="3">Pərakəndə ticarət xərcləri və onun əlavə dəyəri</td></tr>
<tr><td colspan="2">İstehsalçı qiyməti (əsas qiymət) - BP</td></tr>
<tr><td colspan="3">İstehlakçı qiyməti (alış qiyməti) – PP</td></tr>
<tr><td colspan="5">Pərakəndə ticarətin istehlak qiyməti -CPR</td></tr>
</table>

***6. İqtisadi subyektlərin (təsərrüfatların) fəaliyyət nəticələrinin iqtisadi-statistik qiymətləndirmə üsullarının təkmilləşdirilməsi.*** Tədqiqatlarımız deməyə əsas verir ki, bazar iqtisadiyyatı şəraitində və vahid dünya təsərrüfatı sistemində iqtisadi subyektlərin fəaliyyət nəticələrinin maya dəyərinə görə deyil, istehsal xərclərinə görə qiymətləndirilməsi məqsədəuyğun sayılmalıdır. İki yanaşmanın fərqləri 2-ci sxemdən görünür.

İstehsal xərcləri nəzəriyyəsi məhsul istehsalına bilavasitə sərf edilmiş ehtiyatların dəqiq qiymətləndirilməsi, istehsal olunmuş məhsulun həcm və dəyərinin düzgün hesablanması, məhsul və xammalın hərəkətinin düzgün öyrənilməsi kimi məsuliyyətli vəzifələr irəli sürür. Xammal və materiallar alınmış ana görə deyil, məhsul istehsalına sərf edilmiş ana görə uşota alınır və qiymətləndirilir. Belə yanaşma Milli Hesab Sisteminə uyğunlaşdırmaq məqsədi daşıyır.

Sxem 2. Maya dəyəri və istehsal xərcləri üzrə qiymətləndirmə nəzəriyyələrinin müqayisəsi

| *Maya dəyəri nəzəriyyəsi* | *İstehsal xərcləri nəzəriyyəsi* |
|---|---|
| İstehsal edilmiş məhsul və xidmətlərin dəyəri (GV) =<br>daimi kapital: C = C1 + C2<br>a) xammal və materialların dəyəri (C1) +<br>b) əsas fondların amortizasiyası (köhnəlməsi) , C2;<br>+ canlı əməyin dəyəri (işçilərin əmək haqqı) – W;<br>+ izafi dəyər (SV).<br>Burada:<br>**GV = C + W + SV**<br>Maya dəyəri = C + W;<br>SV – kapitalistlər üçün istismar aləti sayılırdı, sosialist sistemli iqtisadiyyat üçün isə mənfəət hesab edilirdi. | **1. İstehsal edilən məhsul və xidmətlərin dəyəri (GV):**<br>***gv = q*bp və ya GV = ∑q*bp,***<br>*q – istehsal edilən məhsulların kəmiyyəti (miqdarı),*<br>*q = 1, 2, 3, … n;*<br>*bp – əsas (istehsalçı) qiyməti, müvafiq dövr (il) üçün orta qiymət,*<br>**2. İstehsal xərcləri (xammal və materialların dəyəri) – C1:**<br>***c1 = cq*pp və ya C1 = ∑cq*pp,***<br>*cq – məhsulun istehsalına sərf edilmiş xammal və materialların, xidmətlərin kəmiyyəti (miqdarı),*<br>*cq = 1, 2, 3, …, n;*<br>*pp – müvafiq məhsul və xidmətlərin istehsalçı (alış) qiyməti*<br>**3. Ümumi əlavə dəyər (TAV):**<br>***TAV = GV – C1;***<br>**4. Muzdlu işçilərin əmək haqqı (W);**<br>**5. İstehsal vergiləri (TP);**<br>**6. Ümumi mənfəət (GP):**<br>***GP = TAV – W – TP;***<br>**7. Əsas fondların amortizasiyası (köhnəlməsi) – C2;**<br>**8. Xalis mənfəət (NP):**<br>**NP = GP – C2** |

***7. Bazar iqtisadiyyatının mahiyyəti və prinsiplərinə dair mülahizələr.*** Məlumdur ki, avropalı iqtisadçı alimlər bazar iqtisadiyyatını fərdi (şəxsi) mülkiyyətin mövcudluğu, azad bazar münasibətləri, rəqabət və inhisarçılıq, müflisləşmə və s. əlamətlərinə görə səciyyələndirirlər. Göstərilən məsələlərin hər birinə yeni münasibətlərin formalaşdırılması məqsədəuyğun sayıla bilər. Odur ki, öz mövqeyimizi qısaca bildirir və müzakirələrə diqqət yönəltməyi arzu edirik.
*Fərdi (şəxsi) mülkiyyətin mövcudluğu*. Bazar iqtisadiyyatının əsas şərtlərindəndir. Bununla belə, onun mənşəyi ədalətli bölgüyə və halallığa söykənməlidir. Toplanmış sərvətin səmərəli istifadəsi, cəmiyyətin tərəqqisinə və həyat tərzinin firavanlaşdırılmasına faydalılığı, təbii ehtiyatların mühafizəsi, gələcək nəsillər üçün davamlı və dinamik inkişaf nüvəsini tarazlamalıdır. Nəfsə sahib olmaq, onu idarə etmək, təbiət, cəmiyyət və insan nəfsi arasında

müəyyən tarazlıq əldə etmək, yəni ***ahəngdarlıq qanununun*** fəaliyyət dairəsindən kənara çıxmamaq müasir dövrün iqtisadi münasibətlərinin başlıca prinsipinə çevrilməlidir. Belə olan halda ölkə və xalqların hamısı üçün əlverişli sayılar. Vahid dünya təsərrüfatı sisteminin zəruri elementi olar. Dünya malına hərislik, hər hansı bir vasitə ilə olursa olsun daha çox sərvət toplamaq, bu məqsədlə qeyri-sivil (hərbə-zorba, yalan, xəyanət, kələk, oğurluq, insanların şərəf və ləyaqətini alçaltmaq, fənd və s.) yol və metodlardan istifadə olunması qəbul edilməzdir, müəyyən təbəqənin, bəzi dövlətlərin mənafeyini tərənnüm etdirir və qəbul edilməz sayılır. Müsəlmanlar arasında belə bir kəlam var: *özünə rəva bilmədiyini, qardaşına və qonşuna da rəva bilmə*. Məlumdur ki, qərblinin dünyagörüşündə ikili yanaşma, ayrı-seçkilik salmaq, fərqləndirmək möhkəm yer tutmuş və həkk olunmuşdur.

*Azad bazar münasibətləri*. İslam dünyagörüşü və mədəniyyət daşıyıcılarına yaxşı məlumdur ki, insan yalnız Yaradanın qarşısında baş əyir, səcdə edir və minnətdarlıq bildirir. Digər bütün hallarda azaddır və ***fail muxtar*** yaradılıb, yəni Allah insana, başqa canlılardan fərqli olaraq, ağıl və düşünmək qabiliyyəti verib. İqtisadi münasibətlərin bütün növlərinin seçimində, ticarət (mübadilə) münasibətlərində də azaddır. Azad seçimə uyğun öhdəliklər götürür, özünün mülk və sərvəti hesabına belə öhdəliklərin yerinə yetirilməsinə məsuliyyət daşıyır. Tərəf müqabili, cəmiyyət və Allah qarşısında cavabdehlik daşıyır. Hər bir müsəlman belə düşünür və fəaliyyət göstərir. Əslində azad bazar münasibətlərinə keçid arzusu avropa məkanında merkantilistlərin xarici ticarətin məhdudlaşdırılmasına dair çıxışlarına qarşı fiziokratların irəli sürdükləri yeni ideya sayılır və dövlətin xarici ticarətin sərbəstləşdirilməsi məqsədini özündə əks etdirmişdir. Ziddiyyət yaranmışdır. Ziyalı və dövlət başçılarının diqqətini cəlb etmişdir. Klassik siyasi iqtisadçılar və davamçılarının məlum şüarına çevrilmişdir. 300 ildən artıqdır ki, bu şüarçılıq mübahisə obyektinə çevrilmiş, lakin hələ də dəqiq təcəssümünü tapmamışdır. Amma başa düşmüşlər ki, təbiətlə ədalətsiz davranmışlar və dünyanın sonuna yaxınlaşırlar. Buna baxmayaraq, dünya malına hərislik toplanmış kapitalı ucuz xammal və əmək ehtiyatları olan ərazilərə yönəltmək, mövcud şəraitdən istifadə edərək daha çox mənfəət əldə etmək, maliyyə fırıldaqçılığı nəticəsində maliyyə və iqtisadi böhranlara şərait yaratmaq kimi yeni halların yaranmasını şərtləndirə bilmişlər.

*Rəqabət* - qərbli iqtisadçı və tədqiqatçıların düşüncə tərzinin məhsuludur. Rəqabət prinsipinə görə, kapital sahibləri, daha çox kapital toplamaq uğrunda, iqtisadi münasibətlər sisteminin hər üç: istehsal, satış (mübadilə) və istehlak sferalarında mübarizəyə girişirlər. Bu mübarizədə qələbə çalmaq üçün bütün vasitələrdən istifadə edilir, hətta aldatma üsul və formalarından çəkinmirlər. Məqsədlərinə uyğun səy göstərirlər: rəqabətə davam gətirmək, qalib çıxmaq və daha çox mənfəət əldə etmək. Rəqiblərinin taleyi onları maraqlandırmır. Belə vəziyyət, fikrimizcə, vahid dünya təsərrüfatı sisteminin fəaliyyət göstərməsinin qanunauyğunluqlarına ziddiyyət təşkil edir. Kiçik bir qrupun mənafeyinə xidmət göstərir. Onlar inhisarlaşırlar. Xeyli sayda rəqibləri isə müflisləşir. Nəticədə təbii və istehsal ehtiyatlarından səmərəli istifadə olunma prinsipi pozulur, davamlı və dinamik inkişaf zərbə altında qalır. Cəmiyyətin məhsullara tələbatı ödənilmir, sosial məsələlərin həllinə şərait yaranmır, firavan həyat tərzi təmin edilmir və s. Fikrimizcə, müasir dövrün insanları, bütün fəaliyyət sahələrində olduğu kimi, iqtisadi münasibətlər sistemində, rəqabət prinsipinin əvəzində ahəngdarlıq (tarazlıq) yaratmaq prinsipinə əsaslansalar məqsədə nail oluna bilər. Ahəngdarlıq prinsipi haqq və ədalət, sülh, dostluq və əməkdaşlıq, çəkidə və keyfiyyətdə aldatmamaq, şəffaflıq kimi əlamətlər ilə təmasda səciyyələndirilə bilər.

*İnhisarçılıq* təsir dairəsinə almaq, tora salmaq kimi mürtəce düşüncə tərzidir, əgər söhbət iqtisadi subyektlərdən gedirsə. Bir qrupun mənafeyini əks etdirir. İqtisadi münasibətlərinin təşkili və idarə edilməsində, habelə insanların düşüncə tərzi, biliyi və

əxlaqında faydalı islahatlar nəticəsində səmərəli əməkdaşlıq və mütəşəkkillik prinsipləri ilə əvəz edilə bilər. Müasir iqtisadi münasibətlərdə kooperasiya (birlik, əməkdaşlıq) siyasətini inhisadçılığın alternativi sayırıq.

*Müflisləşmə* əlaməti iqtisadi münasibətlər sisteminin ənənəvi nəticələrini (əmək vərdişlərini) dağıtmaq, istehsal sferasını dəyişmək, istehlak bazarına məhsul və xidmətlərin təklifini azaltmaq, ehtiyatlardan (istehsal vasitələri, əmək cismləri, əmək, kapitaldan, təbii sərvətlərdən) istifadənin səmərəliliyinin azaldılması (pozulması) kimi hallar yaradır. Cəmiyyətdə təbəqələşmə yaratmaq vasitəsidir. Sosial ədalətin pozulması və hüquqların itirilməsini sürətləndirir.

## *Nəticə və təkliflər*

1. Müasir dövrün kənd təsərrüfatının təsnifləşdirilməsinə yeni yanaşma tələb olunur və onu dörd sahəyə bölmək təklif edilir: bitkiçilik, heyvandarlıq, yemçilik və xidmət sahələri. Onun alt sahələri, qrup və sinifləri üzrə ümumi məhsulun hesablanması, sahəvi tərkibin ətraflı öyrənilməsi, iqtisadi-statistik təhlili, düzgün qərarlar qəbulu üçün mühüm əhəmiyyət kəsb edir;
2. İqtisadi-statistik tədqiqatların üç mərhələli: mikro-, mezo- və makroiqtisadi səviyyədə aparılması, induktiv metoddan istifadə edilməsi müasir iqtisadi münasibətlərin səmərəliliyini müəyyən etməkdə müstəsna rola malikdir;
3. Cəmiyyətin (istehlak bazarının) tələbat = əhalinin şəxsi tələbatı (mövcud əhalinin orta illik sayı *x* fizioloji norma) + milli iqtisadiyyat sahələrinin tələbatı (istehsal ehtiyacları) + ixrac üçün yaranan tələbat (kontrakt müqavilələrinin həcminə uyğun);
4. İstehlak bazarının təklifi = milli (yerli) istehsal + idxal. Təklifin mənbələri (tərəfləri) və ondan istifadə məqsədlərini xarakterizə edən vasitə natural balanslardan ibarətdir. Bazar iqtisadiyyatı şəraitində natural balansların düzgün hazırlanması müstəsna əhəmiyyətə malik olur. Natural balanslar məhsulların ehtiyatlarını, onların yaranma mənbələrini və istifadə məqsədlərini özündə əks etdirən iqtisadi cədvəllərdir;
5. İqtisadi subyektlərin (təsərrüfatların) fəaliyyət nəticələrinin iqtisadi-statistik qiymətləndirilməsində maya dəyəri nəzəriyyəsinin istehsal xərcləri nəzəriyyəsi ilə əvəz edilməsi məqsədəuyğun hesab edilir. İstehsal edilən məhsulların dəyərinin hesablanması üçün iqtisadi subyektlərin (təsərrüfatların) istehsal qiymətlərindən istifadə olunması, məhsulun istehsalına faktiki sərf edilən xammal və materialların dəyərinin isə iqtisadi subyektlərin (təsərrüfatların) istehlakçı qiymətləri ilə hesablanması müasir iqtisadi münasibətlərin xarakterik xüsusiyyəti sayılır;
6. Bazar iqtisadiyyatını səciyyələndirən prinsiplərə daxil edirik: fərdi (şəxsi) mülkiyyət; azad fəaliyyət seçimi; öhdəliklərin yerinə yetirilməsinə məsuliyyətlə yanaşma; ədalətli bölgü; tələb və təklif arasında ahəngdarlıq (tarazlıq); əməkdaşlıq və s.

## Ədəbiyyat siyahısı

1. Nureev R, M, Mikroiqtisadi kurs, ali məktəblər üçün dərslik, “NORMA” Nəşriyyatı, Moskva, 2001, səh,44, rus dilində)
2. 2. Əlisa Zeynallı, Zakir Zeynallı, Statika: ümumi nəzəri məsələlər, dərs vəsaiti, I kitab, Bakı, Avropa nəşriyyatı, 2011
3. Əlisa Zeynallı, Zakir Zeynallı, Statistika: sosial-iqtisadi məsələlər, dərs vəsaiti, II kitab, Bakı, Avropa nəşriyyatı, 2011
4. Azərbaycanın ərzaq balansları, 2012, Dövlətstatkomun məcmuəsi
5. 5. İqtisadi fəaliyyət növlərinin təsnifatı, Dövlətstatkomun nəşri, Bakı, 2008
6. 6. Məhsul növlətinin təsnifatı, Dövlətstatkomun nəşri, Bakı, 2009
7. 7. Agriculture in Lithuania (Litvada kənd təsərrüfatı), 2009, statistik məcmuə, Vilnus 2010.

## Ряд принципов продовольственной безопасности в условиях рыночной экономики

**Зейналлы Алиса Таваккуль, д. ф. э.,**
АзНИИЭиОСХ, заведующий отделом,
**zeynal1950@mail.ru;**
мобильный телефон 051 593 30 25

**Резюме**

В работе в контексте с продовольственной безопасностью рассматриваются следующие вопросы: по совершенствованию структуры сельского хозяйства предлагаются следующие отрасли - растениеводство, животноводство, кормоводство и отрасль услуги; для экономико-статистических исследований предлагается мезо экономический подход и обосновывается его важность; конкретизируется сущность категорий «спрос» и «предложение» потребительского рынка; предлагается заменить метод «себестоимости» с методом «производственных затрат» при экономико-статистической оценке результатов экономических действий субъектов; выдвигаются новые предложения по определению принципов рыночной экономики.

**Ключевые слова:** продовольственная безопасность, спрос, предложения, себестоимость, производственные затраты, рыночная экономика, цена, конкуренция, банкротство.

**Several principles of food security in conditions of market economy**

Zeynalli Alisa Tavakkul, Dr.Ph.ec,
AzSRIE&OA, head of the department,
zeynal1950@mail.ru;
mobile phone: 051 593 30 25

**Resume**

The following questions in context with the food security are considered in the paper: the following branches are offered on improvement of the structure of agriculture - plant growing, animal breeding, forage planting and branch of service; for economic - statistical researches it is offered mezzo-economic approach and its importance is based; the essence of categories “demand” and “offer” of the consumer market is concretized; it is offered to replace a method “cost price” with method of “production expenses” during economic - statistical estimation of the results of economic actions of the subjects; it is put forwarded new offers on definition of principles of market economy.

**Key words:** food security, demand, offers, cost price, industrial expenses, market economy, price, competition, bankruptcy.